# Sənət fədaisi



*Min illərin arzusuna sığınmış uca çinarlı Göyçay yazın gəlişi ilə gül-çiçək ətrinə bürünmüşdür. Şəhərin sərin mehi üstümüzə əsdikcə çox-çox uzaqlardan qulağıma bir səs gəlirdi.*

*Əzizinəm Qarabağ*
*Şəki-Şirvan, Qarabağ.*
*Aləm cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

Bu səsin əks-sədası damla-damla ürəklərə hopub qəlbləri riqqətə gətirirdi. Şirin avazı, şaqraq zəngulələri hamını məftun edirdi. Bu səsdə bir doğmalıq, bir yaxınlıq duyulurdu. Tanış gəlirdi bu səs mənə. Allahın nadir insanlara bəxş etdiyi bu səsin ecazkar qüvvəsi məni dartıb özümə doğru aparırdı. Yaxınlaşdıqca səs mənə daha da doğmalaşırdı. Tanıdım bu səsi. Bu səs doğma Göyçayımıza çox da uzaqdan gəlmirdi. Bu səs Göyçayın bir addımlığında yerləşən Səhadət kəndindən gəlirdi. Bu səsin sahibi isə Göyçayda uşaqdan-böyüyə hamının tapdığı, özünəməxsus səsi ilə könülləri fəth edən istedadlı el xanəndəsi Səməndər Məmmədov idi.

Səməndər Saleh oğlu Məmmədov 1938-ci ildə Göyçay rayonunun Səhadət kəndində anadan olub. 7 sinfi Göyçay rayon Qarabağlar kənd orta məktəbində bitirib. 10-cu sinfi isə 1955-ci ildə Göyçay şəhər 3 saylı məktəbdə başa vurub. Elə həmin ildə Göyçay Kənd Təsərrüfatı Texnikumuna qəbul olunub. Musiqiyə olan həvəsi onu özfəaliyyət kollektivlərinə gətirib.

Bədii özfəaliyyət kollektivlərinin tərkibində respublikanın bir sıra rayonlarında qastrol səfərlərində olur. Azərbaycan muğamlarına və mahnılarına olan həvəsi, özünün çox gözəl istedadı və sənət dostlarının təkidi ilə 1970-ci ildə Ü.Hacıbəyov adına Ağdam Musiqi Texnikumunun səs şöbəsinə daxil olur. Elə həmin vaxtdan Ağdam «Şur» ansamblının solistidir. Həmin ansamblın tərkibində keçmiş SSRİ-nin bir çox şəhərlərində və xarici ölkələrdə qastrol səfərlərində olur. 1971-ci ildə indiki Respublika sarayının açılışında iştirak edən 8 kollektivdən biri Ağdam «Şur» kollektivi olur. Altı nəfərdən biri Səməndər Məmmədov böyük səhnədə Qarabağ şikəstəsi ifa edir. Konsertin sonunda o vaxt Azərbaycan Kommunist Partiyasının I katibi işləyən H.Əliyev «Şur» ansamblına şəxsən öz təşəkkürünü bildirir.

SSRİ-nin yaranmasının 50 illiyinə həsr olunmuş festivalda Səməndər Məmmədov Aşıq Ələsgər adına respublika xalq yaradıcılığı evinin I dərəcəli diplomuna, fəxri-fərmanına layiq görülür.

S.Məmmədov 1978-ci ildə «Oxu tar-78» IX Respublika baxış müsabiqəsinin qalibi olur.

S.Məmmədov dəfələrlə Azərbaycan Televiziyası və Radiosunda solo kosertlərdə çıxış etmişdir. 1978-80-ci illərdə S.Məmmədov Ümumittifaq festivalı laureatı adına layiq görülür. Və döş nişanı ilə təltif olunur. Ömrünü Azərbaycan xalq mahnı və muğamlarına həsr etmiş xanəndə öz ecazkar səsi ilə bu gün də minlərlə insan qəlbini fəth etməkdədir. Rayonumuzda keçirilən elə bir konsert proqramı olmaz ki, orada S.Məmmədov iştirak etməsin.

Ömrünün ən gözəl günlərini yaşayır S.Məmmədov. Tanrının bəxş etdiyi şaqraq zəngulələri, şirin avazilə. Tanrı özü hifz etsin Səməndəri! Sənə həyatda cansağlığı və xoşbəxtlik arzulayıram.

*Qaldır zənguləni, qaldır*
*göylərə,*
*Zirvələrdən gəlsin səsin,*
*Səməndər.*
*Oxu «Yetim segah»,*
*oxu «Çahargah»,*
*Vəcdə gəlsin yer kürəsi,*
*Səməndər.*

**Nəriman MƏLİKOV,**
**Göyçay Rayon Mədəniyyət və Turizm Şöbəsinin aparıcı mütəxəssisi**